# Xoreoqraf Yusif Qasımovun 75 illik yubileyi qeyd olunub



Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Bakı Xoreoqrafiya Akademiyasının (BXA) müəllimi, Xalq artisti Yusif Qasımovun 75 illik yubileyi qeyd olunub.

Yubiley tədbirində BXA-nın, eləcə də Müdafiə Nazirliyinin Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və rəqs ansamblı, Dövlət Mahnı və Rəqs Ansamblı, Akademik Opera və Balet Teatrı və Akademik Musiqili Teatrının balet truppası üzvləri, Dövlət Rəqs Ansamblı və “Cəngi” ansamblı çıxış ediblər.

R.Hacıyevin “Azərbaycan süitası” xoreoqrafik miniatürü, P.İ.Çaykovskinin “Şelkunçik”, E.Mansurovun “Odlar yurdu”, “Acar rəqsi”, “Özbək rəqsi”, T.Quliyevin “Qaytağı”, xalq musiqisi “Laçın”, “Bayram süitası”, “Zəfər rəqsi”, “Vağzalı-Mirzəyi”, Q.Qarayevin “Yeddi gözəl” baletindən parça, “Yallı”, tacik xalq rəqsi “Masti bahor” və digər rəqs kompozisiyaları nümayiş olunub.

Konsert proqramı böyük maraqla qarşılanıb.

Gecədə ölkəmizdən və xaricdən mədəniyyət və incəsənət xadimlərinin yubilyara təbrikləri səslənib.

Mədəniyyət .- 2023.- 29 noyabr, № 88.- S.5.